

# Rozari



Qədim Romada olduğu kimi orta əsrlərdə də adlı-sanlı adamlar arasında onlara tabe olanların yaxud hörmət edənlərin təqdim etdikləri çiçəklərdən toxunmuş tacı başında gəzdirmək adəti var idi. Kilsə bu adəti ruhani planda tətbiq etməyi və Məryəm Anaya dualardan toxunmuş tac – «Rozari» təqdim etməyi, duada Onu Atanın Qızı, Oğulun Anası və Müqəddəs Ruhun Nişanlısı kimi izzətləndirməyi bizə nəsihət edir.



†

AZƏRBAYCAN RESPUBLİKASININ
DİNİ QURUMLARLA İŞ ÜZRƏ
DÖVLƏT KOMİTƏSİNİN
İCAZƏSİ İLƏ (DK-417/F SAYLI MƏKTUB)
ÇAP EDİLİB.

Rozari duasından əvvəl adətən bu dua oxunur:

**Rəbb İsa Məsih, Sənə bu Rozarini Adının izzəti üçün Sənin Müqəddəs Ananın şərəfinə və insan ruhlarının xilası üçün təqdim edirəm.**

Adətən Rozari duası zamanı böyük və kiçik muncuq dənələrindən ibarət olan təsbeh istifadə olunur. Dua edənlər əvvəlcə özlərinə xaç işarəsini çəkirlər, sonra balaca xaçın üzərində «İman edirəm» duasını, birinci böyük muncuq dənəsində «Ey göylərdə olan Atamız», üç kiçik muncuq dənəsində üç dəfə «Salam, mübarək Məryəm» (iman, ümid və məhəbbətin çoxalması üçün), sonra ilk sirrini adı çəkilir və böyük muncuq dənəsində «**Ey göylərdə olan Atamız**», kiçik muncuq dənəsində on dəfə «**Salam, mübarək Məryəm**» və sonda «**Ataya, Oğula və Müqəddəs Ruha indi də, həmişə də, əbədi olaraq da həmd olsun. Amin.**» mədhiyyəsini söyləyirlər;

Həmçinin bu müraciətnaməni də sonda əlavə etmək olar: **Əzəldən günahsız olan Məryəm, Sənin yanına gələn bizlər üçün Allaha dua et.**

Yaxud 1917-ci ildə Məryəm Ananın Fatimada uşaqlara öyrətdiyi duanı söyləmək olar:

**Rəbb İsa Məsih, bizim günahlarımızı bağışla, cəhənnəm alovundan bizi xilas et və bütün insanları, xüsusilə də, Sənin mərhəmətinə daha çox ehtiyacı olanları cənnətə apar.**

# Həvarilərin Kredosu

İman edirəm.
Yeri və göyü yaradan Külli-ixtiyar Ata
Allaha ve Onun Yeganə Oğlu,
Müqəddəs Ruhdan döllənmiş,
Bakirə Məryəmdən doğulmuş,
Ponti Pilatın hökmü altında əzab
çəkmiş, çarmıxa çəkilmiş,
ölmüş və dəfn olunmuş,
ölülər aləminə enmiş,
üçüncü gün dirilmiş, göylərə qalxmış,
külli-ixtiyar Ata Allahın sağında
əyləşmiş, oradan diriləri və ölüləri
mühakimə etməyə gələcək,
Rəbbimiz İsa Məsihə iman edirəm.
Müqəddəs Ruha,
Müqəddəs Ümumdünya Kilsəsinə,
müqəddəslərin ünsiyyətinə,
günahların bağışlanmasına,
bədənin dirilməsinə,
əbədi həyata iman edirəm. Amin.

**Ey göylərdə Olan Atamız!**
Adın Müqəddəs tutulsun,
Sənin Səltənətin gəlsin,
göydə olduğu kimi, yerdə də
Sənin iradən olsun.
Gündəlik çörəyimizi bizə bu gün ver;
və bizə borclu olanları
bağışladığımız kimi,
bizim borclarımızı da bağışla.
Və bizi sınağa çəkmə,
lakin bizi şərdən xilas et.
Çünki səltənət, qüdrət və izzət
əbədi olaraq Sənindir!

**Salam, mübarək Məryəm!**
Rəbb Səninlədir. Sən qadınlar
arasında bəxtiyarsan və Sənin
bətninin Səmərəsi İsa bəxtiyardır.
Müqəddəs Məryəm, Allah Anası,
indi və ölüm saatımızda
biz günahkarlar üçün dua et.
Amin.

**Ataya, Oğula və Müqəddəs Ruha**
indi də, həmişə də,
əbədi olaraq da həmd olsun.
Amin

**Əzəldən**
**günahsız olan Məryəm**,
Sənin yanına gələn
bizlər üçün
Allaha dua et.

**Rəbb İsa Məsih,**
bizim günahlarımızı bağışla,
cəhənnəm alovundan bizi xilas et
və bütün insanları, xüsusilə də,
Sənin mərhəmətinə
daha çox ehtiyacı olanları
cənnətə apar.

# 1

Sevincli



## Məryəmə Xoş Xəbərin verilməsi

Mələk onun yanına gəlib dedi:
"Salam, ey lütfə nail olmuş qız,
Rəbb səninlədir". *(Lk 1, 28)*
“Mən Rəbbin quluyam.” *(Lk 1, 38)*

*Sirrin bəhrəsi – təvazökarlıq*

*...Müqəddəs Ruhdan döllənmiş İsa*

Sevincli

# 2



## Bakirə Məryəmin Elizavetə baş çəkməsi

Elizavet də Müqəddəs Ruhla dolub
uca səslə çığırdı: "Sən qadınlar arasında
xeyir-dualısan, sənin bətninin bəhrəsi də
xeyir-dualıdır! *(Lk 1, 41-42)*

*Sirrin bəhrəsi – yaxınına məhəbbət*

*səninlə Elizavetin yanına gedən İsa*

# 3

Sevincli



İsa Məsihin doğulması

Məryəm körpəni axura qoydu, çünki qonaq evində onlara yer tapılmadı. *(Lk 2, 7)*
Mən sizə bütün xalqı çox sevindirəcək bir Müjdə gətirmişəm... Xilaskar doğuldu. Bu, Rəbb Məsihdir. *(Lk 2, 10)*

*Sirrin bəhrəsi – kasıbçılıq ruhu*

*...Betlexemdə doğulmuş İsa*

# 4



## Həsretmə

Yusiflə Məryəm Körpəni Rəbbə həsr etmək üçün Yerusəlimə gətirdilər, necə ki Rəbbin Qanununda yazılmışdır: "Bətndən ilk doğulan bütün oğlanlar Rəbbə təqdis olmalıdır". *(Lk 2, 22-23)*

*Sirrin bəhrəsi – təmizlik və itaət*

*...məbəddə həsr olunmuş İsa*

# 5

Sevincli



## Yeniyetmə İsanın məbəddə tapılması

Üç gündən sonra Onu mə'bəddə tapdılar. İsa müəllimlər arasında oturmuşdu və onlara qulaq asır, suallar verirdi. *(Lk 2, 46)*
“Mən Atamın evində olmalıyam.” *(Lk 2, 49)*

*Sirrin bəhrəsi – Məsihi əldə etmək arzusu*

*...məbəddə tapılan İsa*

Nurlu

# 1



## Rəbb İsanın iordan çayında vəftizi

İsa vəftiz olunan kimi sudan çıxdı. O vaxt göylər Ona açıldı və Allahın Ruhunun göyərçin kimi endiyini və Öz üzərinə qonduğunu gördü. Göylərdən bir səda gəldi: “Bu Mənim sevimli Oğlumdur, Ondan razıyam.” *(Mt 3, 16-17)*

*Sirrin bəhrəsi – Allahın məhəbbətinə etibar*

*...İordan çayında vəftiz olan İsa*

2

Nurlu

# İsa Qanadakı toyda ilk möcüzəsini edir



Şərab qurtaranda anası İsaya dedi: «Şərabları qalmadı». İsa dedi: «Ana, sən nə etməyimi istəyirsən? Mənim vaxtım hələ çatmayıb». Anası xidmətçilərə dedi: «Sizə nə desə, edin». *(Yəh 2, 3-5)*
Isa... izzətini üzə çıxardı.
Şagirdləri də Ona iman etdi» *(Yəh 2, 11).*

*Sirrin bəhrəsi – yaxınımıza mərhəmət*

*...toyda suyu şəraba çəvirən İsa*

Nurlu

# 3

## Allahın Səltənətinin vəzi və Allaha tərəf dönməyə çağırış



"İsa Qalileyaya gəlib Allahın Müjdəsini bəyan edirdi: Tövbə edin və Müjdəyə inanın." *(Mk 1, 14-15)*

*Sirrin bəhrəsi – ürəyin kədərlənməsi*

*...tövbəyə çağıran və*

*Xoş xəbəri yayan İsa*

# 4

Nurlu

## İsa Məsihin surətinin dəyişilməsi



İsa Özü ilə yalnız Peter, Yaqub və qardaşı Yəhyanı götürüb hündür bir dağa çıxdı. Onların qarşısında görünüşü dəyişdi. Üzü günəş kimi parladı və libası işıq kimi ağ oldu. *(Mt 17, 1-2)*

*Sirrin bəhrəsi*

*– Müqəddəslər Bəxşişlərdə İsaya sitayiş*

*...dağda sürətini dəyişən İsa*

Nurlu

# 5



Evxaristiyanın təyin edilməsi

İsa çörəyi götürdü, şükür edib onu böldü və onlara verdi. O dedi: "Bu sizin üçün qurban verilən bədənimdir. Bunu Məni xatırlamaq üçün edin". *(Lk 22, 19)*

*Sirrin bəhrəsi – Rəbbin Süfrəsində müntəzəm iştirak*

*...bədəni və qanı ilə bizə həyat çörəyi verən İsa*

# 1

Kədərli



## Getsemanidə dua

“Ey Ata, Mənim yox, Sənin iradən olsun! İsa dəhşətli iztirab içində daha sə’ylə dua edirdi. Onun təri yerə düşən qan damlalarına bənzəyirdi. İsa duadan qalxıb şagirdlərin yanına gəldi, onları qəm-qüssədən üzülmüş və yatmış tapdı. *(Lk 22, 42. 44-45)*

*Sirrin bəhrəsi – Allahın iradəsinə tabe olma*

*...bizim üçün qan-tərini tökən İsa*

Kədərli

# 2



## Qamçılanma

“Onda Pilat İsanı aparıb qamçılatdı.”

*(Yəh 19, 1)*

“Onun yaraları ilə biz şəfa tapdıq.”

*(Yeş 53, 5)*

*Sirrin bəhrəsi – cismin ehtiraslarının öldürülməsi*

*...bizə görə qamçılanmış İsa*

# 3

**Kədərli**



## Tikanlı tacın qoyulması

Onu soyundurub qırmızı rəngli xələt geyindirdilər. Tikanlardan bir tac hörüb başına qoydular, sağ əlinə də bir qamış verdilər. *(Mt 27, 28-29)*

“Padşahınız budur.” *(Yəh 19, 14)*

*Sirrin bəhrəsi – qürur qüsuruna qalib gəlmə*

*...bizə görə tikanlı tac taxan İsa*

Kədərli

# 4




4. Çarmıx yolu
İsa çarmıxını Özü daşıyaraq Kəllə (ibranicə Qolqota) adlanan yerə çıxdı. *(Yəh 19, 17)*
«Kəsilməyə aparılan quzu kimi» *(Yeş 53, 7)*

*Sirrin bəhrəsi – sınaqlarda səbir*

*...bizim üçün çarmıxı daşıyan İsa*

5

Kədərli



# İsa Məsihin çarmıxa çəkilməsi

İsa uca səslə nida edərək dedi: "Ey Ata! Ruhumu Sənin əlinə verirəm". İsa bunu deyib axır nəfəsini verdi. *(Lk 23, 46)*

«Bədənini deşdikləri Şəxsə baxacaqlar» *(Zək 12, 10; Yəh 19, 37)*

*Sirrin bəhrəsi – Allaha məhəbbət və insanın xilas olunması üçün səy göstərmə*

*...bizə görə çarmıxda ölən İsa*

İzzətli

# 1



## Dirilmə

"Heyrətlənməyin, siz çarmıxa çəkilmiş Nazaretli İsanı axtarırsınız. O dirilib, burada yoxdur. Bax bu Onu qoyduqları yerdir. (Mk 16, 6) «Mən dövrün sonuna qədər hər gün sizinləyəm» (Mt 28, 20)

*Sirrin bəhrəsi – ruhani yeniləşmə*

*...dirilmiş İsa*

# 2

İzzətli



Göylərə yüksəlmə

Rəbb İsa onlarla danışandan sonra göyə qaldırıldı və Allahın sağında oturdu. *(Mk 16, 19)* «Öz Atamın – sizin Atanızın, Öz Allahımın – sizin Allahınızın yanına qalxıram» *(Yəh 20, 17)*

*Sirrin bəhrəsi – Məsihlə səmalarda olmaq arzusu*

*...göylərə yüksələn İsa*

İzzətli

# 3



## Müqəddəs Ruhun enməsi

Onların hamısı Müqəddəs Ruhla doldu və Ruh danışdırdığı üçün başqa dillərdə danışmağa başladılar. *(Həv 2, 4)*
«gedin, bütün millətləri Mənim şagirdim edin» *(Mt 28, 19)*

*Sirrin bəhrəsi – həvarilik ruhu*

*...Müqəddəs Ruhu göndərən İsa*

# 4

İzzətli




«Lütfə nail olmuş qız» *(Lk 1, 28)*
Allahın göydəki mə’bədi açıldı və Onun Əhd sandığı orada zahir oldu. *(Vəhy 11, 19)*

*Sirrin bəhrəsi – dünyanın sonu*

*...ölümdən sonra*
*səni göylərə qaldıran İsa*

İzzətli

# 5



Bakirə Məryəmin səmavi izzəti ilə taclanması

Rəbb «qulunun yazıq halını gördü» *(Lk 1, 48)* Göydə böyük bir əlamət zahir oldu: günəşi əyninə geyinmiş, ayaqları altında ay və başında on iki ulduzlu tac olan bir qadın göründü. *(Vəhy 12, 1)*

*Sirrin bəhrəsi*

*– Müqəddəs Bakirənin himayəçiliyinə ümid*

*...səni tacla şanlandıran İsa*

*Rozarinin son duası:*

Ey müqəddəs Allah Anası,
bizim üçün dua et ki,
Məsihin vədlərinin
yerinə yetirilməsinə layiq görülək.

***Dua edək:***

Ey Allah, Yeganə Oğlun Öz həyatı,
ölümü və dirilməsi bahasına
bizə əbədi xilasın rifahını əldə etdi.
Qoy biz Müqəddəs Bakirə Məryəmin
Rozari sirlərinə ehtiram edərək,
burada düşündüklərimizə bənzəyək
və onların vəd etdiklərini əldə edək.
Rəbbimiz Məsih vasitəsilə.
Amin.

**Himayənə gəlirik,**

ey Müqəddəs Allah Anası,
dərd içində olduqda
dualarımıza həqarətlə yanaşma,
lakin həmişə bütün təhlükələrdən
bizi azad et. İzzətli və Bəxtiyar
Bakirə Qız. Amin.

# Katolik Kilsəsi Azərbaycan




www.catholic.az